# BAKI DÖVLƏT UNİVERSİTETİNİN QAZAX FİLİALI

Bakı Dövlət Universitetinin Qazax filialının Direktorluğunun 16 mart 2023-cü il tarixli iclasının (Protokol № 3) qərarı ilə qəbul edilmişdir.

**TƏSDİQ EDİRƏM**

**Direktor ____________ Arif Rüstəmov**

**« 16 » « mart » 2023-cü il**

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Bakı Dövlət Universiteti Qazax filialı
Kazakh branch of Baku State University Ministry of Science and Education of Azerbaijan Republic

## KOMPÜTER VƏ İNFORMASİYA MƏRKƏZİNİN

# Ə S A S N A M Ə S İ

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə qüvvədə olan normativ-hüquqi aktlara müvafiq olaraq hazırlanmışdır və mərkəzin əsas funksiyalarını, vəzifələrini, habelə işinin təşkili qaydalarını və məsuliyyətini müəyyən edir. Mərkəz öz fəaliyyətində bu Əsasnaməni rəhbər tutur.

1.2. Mərkəz BDU-nun Qazax filialının struktur bölməsi olmaqla BDU-nun Qazax filialının direktoruna tabedir və öz işini BDU-nun Qazax filialının digər struktur bölmələri ilə qarşılıqlı əlaqədə qurur.

1.3. Mərkəzin Əsasnaməsi BDU-nun Qazax filialının direktoru tərəfindən təsdiq olunur.

## 2. Kompüter və İnformasiya Mərkəzinin fəaliyyətinin məqsədi

2.1. Kompüter siniflərində tədris işinin təşkili;

2.2. Kompüterlərin virusdan qorunma tədbirlərinin həyata keçirilməsi;

2.3. Qəza vəziyyətinə düşmüş proqram təminatı və zədələnmiş məlumat bazalarının bərpasının həyata keçirilməsi;

2.4. Kompüter biliklərinin əsasları və tətbiqi proqram vasitələri barədə əməkdaşlar üçün kursların təşkil edilməsi;

2.5. Şöbədə görülən işlər barədə hesabatların hazırlanması;

2.6. Filial strukturları arasında təhlükəsiz və etibarlı şəbəkə əlaqəsinin, məlumat mübadiləsinin təşkil edilməsi, mövcud sistemlərin qüsursuz və etibarlı işləməsinin təmin edilməsi;

2.7. İnformasiya texnologiyaları və proqram təminatı sahəsində inkişaf məqsədi ilə yeni avadanlıq təchizatı ilə bağlı təkliflərin hazırlanması;

2.8. İstifadə olunan texniki vasitələrin vaxtında yeniləşdirilməsinin təmin edilməsi, yeni serverlərin və şəbəkə avadanlıqlarının alınması üçün sifarişlərin hazırlanması və istifadəyə verilməsinin həyata keçirilməsi;

2.9. Filialın bütün strukturlarında mövcud olan texniki avadanlıqların işlək vəziyyətdə olmasının təmin edilməsinin, proflaktik tədbirlərin həyata keçirilməsi;

2.10. Filialda istismar olunan kompüter texnikasından müvafiq qaydalara uyğun istifadə edilməsinə nəzarətin həyata keçirilməsi.

## 3. Mərkəzin əsas funksiyaları

3.1. BDU-nun Qazax filialının korporativ şəbəkəsinin, informasiya resurslarının təhlükəsizliyinin və işlək vəziyyətdə saxlanmasının təmin edilməsi;

3.2. Ali təhsil müəssisəsinin informasiyalaşdırılması proqramının həyata keçirilməsində struktur bölmələrinin fəaliyyətinin əlaqələndirilməsi;

3.3. İnformasiya texnologiyalarından istifadə və informasiya texnologiyalarının inkişafı məsələləri üzrə BDU-nun Qazax filialının struktur bölmələrinə məsləhət, informasiya və texniki xidmətin göstərilməsi;

3.4. Tədris prosesinin informasiya təminatının təşkilinə köməklik göstərilməsi;

3.5. BDU-nun Qazax filialının istifadə olunan informasiya sistemlərinin qarşılıqlı əlaqəli fəaliyyətini təşkil etmək;

3.6. BDU-nun Qazax filialının informasiya sistemlərinin istismarının təşkilinə metodiki rəhbərlik etmək və bu işlərin icrasına daim nəzarət etmək;

3.7. BDU-nun Qazax filialının informasiya sistemləri və məlumat bazalarından təsdiq edilmiş təlimatlara uyğun şəkildə istifadə edilməsinə nəzarət etmək;

3.8. İnformasiya texnologiyaları sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və onun tətbiqi ilə bağlı təkliflər hazırlamaq;

3.9. BDU-nun Qazax filialının əməkdaşlarının informasiya sistemlərindən istifadə bacarıqlarının artırılması üçün təlimlər təşkil etmək;

3.10. Mərkəzin fəaliyyəti ilə əlaqədar əmr, sərəncam və digər sənəd layihələrini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək;

3.11. Tədris və iş prosesində kompüter texnikasından istifadənin səmərəliliyinə nəzarət etmək;

3.12. Yeni informasiya texnologiyaları və kompüter proqramlarından istifadə üzrə məsləhətləşmələr aparmaq;

3.13. Telekommunikasiya texnologiyalarından istifadə etməklə distant təhsil üzrə informasiya xidmətləri üçün layihələrin hazırlanmasında iştirak etmək.

## 4. Mərkəzin idarə olunması

4.1. Mərkəzin fəaliyyətinə filial direktoru tərəfindən nəzarət edilir;

4.2. Mərkəzə direktor tərəfindən təyin edilən müdir rəhbərlik edir;

4.3. Mərkəzin müdiri Mərkəzin fəaliyyəti barədə direktorluq qarşısında vaxtaşırı hesabat verir;

4.4. Əməkdaşların vəzifə bölgüsü mərkəz müdiri tərəfindən həyata keçirilir;

4.5. Mərkəzin müdiri mərkəzin işini təşkil edir, mərkəzin qarşısında qoyulmuş vəzifələrin icrasını təmin edir;

4.6. Səlahiyyətləri daxilində işçilərə xidməti fəaliyyətləri ilə əlaqədar göstərişlər verir, mərkəzin işçiləri tərəfindən əmək intizamına riayət edilməsi və öz vəzifələrini vaxtında və düzgün icra etmələri, mərkəzin icrasında olan işlərin müəyyən edilmiş qaydada və müddətdə aparılması üzərində nəzarəti həyata keçirir;

4.7. Filialın rəhbərliyi yanında keçirilən və digər tədbirlərdə mərkəzi təmsil edir;

4.8. Mərkəz müdiri mərkəz qarşısında qoyulmuş vəzifələrin vaxtında və tam icrasına görə məsuliyyət daşıyır.